Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №2, 2022, **s. 24-29**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №2, 2022, **с. 24-29**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №2, 2022, **pp. 24-29**

UOT 37.01

Maralxanım Tofiq qızı Əliyeva,
pedaqogika üzrə fəlsəfə doktoru, baş müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti,
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi,68
E-mail: m.aliyeva60@gmail.com

YARADICILIQ FENOMENİNİN PEDAQOJİ, PSİXOLOJİ VƏ FƏLSƏFİ MAHİYYƏTİ

Açar sözlər: *yaradıcılıq, əqli fəaliyyət, təfəkkür, fenomen, idrak, zehni model*

Məqalədə yaradıcılıq məhfumunun mahiyyətinin açıqlanması cəhdləri verilir, onun mərhələləri və digər psixi proseslər ilə əlaqəsi göstərilir. Burada qeyd olunur ki, yaradıcılıq prosesini müxtəlif elm sahələrindən alimlər (filosoflar, psixoloqlar, kulturoloqlar, pedaqoqlar) uzun illər tədqiq etsələr də, hələ də onun təbiətində bir çox mübahisəli və qaranlıq məqamlar vardır. Məqalədə belə bir fikir sürülür ki, a) yaradıcılıq xüsusi qeyri-standart, qeyri-trivial əqli fəaliyyət yolu ilə yaradılan müəyyən modellər əsasında gerçəkliyi dəyişdirən vahid bir akt olmalıdır; b) hər hansı bir fəaliyyətin yaradıcı təbiəti fəaliyyətin özünü gücləndirir, onu daha məhsuldar edir; c) istənilən bir fəaliyyətdə yaradıcı yanaşma fəaliyyət subyektinin inkişaf edən funksiyasını həyata keçirir.

М.Т.Алиева

ПЕДАГОГИЧЕСКАЯ, ПСИХОЛОГИЧЕСКАЯ И ФИЛОСОФСКАЯ СУЩНОСТЬ ФЕНОМЕНА ТВОРЧЕСТВА

Ключевые слова: *творчество, умственная деятельность, мышление, познание, мыслительная модель*

В статье дана попытка раскрытия сущности феномена творчества, показаны его этапы и связь с другими психическими процессами. Несмотря на то, что процесс творчества долгие годы изучается учеными различных областей науки (философии, психологии, культурологии, педагогики) в его природе еще много спорных и непонятых моментов. В статье выдвигается идея, что а) творчество должно быть целостным актом, изменяющим действительность на основе определенных моделей, созданных посредством

особой нестандартной, нетривиальной мыслительной деятельности; б) творческий характер любой деятельности усиливает саму деятельность, делает ее более продуктивной; в) творческий подход к любой деятельности выполняет развивающую функцию субъекта деятельности.

M.T.Aliyeva

PEDAGOGICAL, PSYCHOLOGICAL AND PHILOSOPHICAL ESSENCE OF THE PHENOMENON OF CREATIVITY

Key words: *creativity, mental activity, thinking, cognition, mental model*

The article gives an attempt to reveal the essence of the phenomenon of creativity, shows its stages and connection with other mental processes. Despite the fact that the process of creativity has been studied for many years by scientists from various fields of science (philosophy, psychology, cultural studies, pedagogy), there are still many controversial and misunderstood moments in its nature. The article puts forward the idea that a) creativity should be a holistic act that changes reality on the basis of certain models created through a special non-standard, non-trivial mental activity; b) the creative nature of any activity enhances the activity itself, makes it more productive; c) a creative approach to any activity performs the developing function of the subject of activity.

Yaradıcılıq fenomeninin öyrənilməsi ilə bir çox elm sahələri məşğul olur: fəlsəfə, psixologiya, sosiologiya, kulurologya, estetika, pedaqogika, elmşünaslıq, kibernetika, evristika və s. Yaradıcılıq haqqında nəhəng materialın mövcudluğuna və yaradıcılıq üçün sonsuz sayda təriflərin olmasına baxmayaraq, hələ də bu fenomenin mahiyyəti aydın deyil.

Yaradıcılıq məhfumu elm insanlarını hələ qədim zamanlardan düşündürürdü. Bu "mürəkkəb, sirli proses"in ilk tədqiqatçıları antik dövrün filosofları olmuşdu. Sonra psixoloqlar, daha sonra kulturoloqlar və ən sonda pedaqoq-alimlər bu problemi tədqiq etməyə çalışmışlar. Əsrlər boyu insan düşüncəsi yaradıcılıq sirlərini həll etməyə çalışırdı, lakin bu günə qədər onun təbiətində hələ çox mübahisəli və qaranlıq məqamlar vardır. Yalnız bir şey danılmazdır: yaradıcılıq – insan təfəkkürünün mürəkkəb bir fenomenidir. İndiki dövrdə yaradıcılığın konseptual idrakında, dərk edilməsində bəzi boşluqlar var.

Yaradıcılığın bəzi ənənəvi şərhləri var. Onların əksəriyyəti yaradıcılığın "əvvəllər heç vaxt mövcud olmayan keyfiyyətcə yeni bir şey yaradan fəaliyyət" olduğunu vurğulayır (1, 670). Əgər yaradıcılıq fəaliyyətin bir atributu kimi başa

düşülürsə, onda deyə bilərik ki, istənilən fəaliyyətdə bu və ya digər dərəcədə yaradıcılıq komponenti var. Yaradıcılıq fəaliyyətinin müxtəlif növlərini ayırd etmək olar: elmi yaradıcılıq, bədii yaradıcılıq, texniki yaradıcılıq, idrak yaradıcılığı və s.

Öz növbəsində, bədii yaradıcılıq çərçivəsində ədəbi, musiqi və təsviri incəsənət yaradıcılığı ayırd etmək olar; texniki yaradıcılıqda – model, aviasiya və gəmiqayırma sahəsində yaradıcılıq; elmi yaradıcılıqda təbiətşünaslıq, humanitar, tətbiqi yaradıcı fəaliyyət növlərini ayırd etmək olar. G.Uolles yaradıcı fəaliyyətin aşağıdakı sxemini təklif edir: şüurlu hazırlıq, şüuraltı inkubasiya dövrü, ilham, fərziyyə, ideyaların məntiqi tərtibatı və interpretasiyası (təfsiri, yozumu) (2, 94).

D.Makkinnon yaradıcı fəaliyyətinin məşhur beş mərhələsini müəyyənləşdirir: "problemin son dərəcə aydın şəkildə formalaşdırılması üçün bilik, bacarıq və vərdişlərin toplanması; səylərin cəmləşməsi; problemdən uzaqlaşmaq, digər fəaliyyətlərə keçmək; ilham; verifikasiya (yoxlama)." (3, 10). Bir çox müəlliflər yaradıcılıq prosesinin fazaları, mərhələləri, həyata keçirmə yolları haqqında analoji fikirlər irəli sürürlər. Məsələn, P.Konin yaradıcılığı insan mədəniyyətinin yenidən qurulmasının məntiqi kimi aşağıdakı ümumi sxemin zəncirində göstərir: xarici stimul – təhlil – sual – fərziyyə – model axtarışı – əmək – şeylər – bütün zəncirin yeni bir dövriyyədə təkrarlanması (4, 406).

Fikrimizcə, texniki, elmi və bədii yaradıcılığın ümumi xüsusiyyətlərini müqayisə etdikdə aşağıdakı ümumi xassələri tapmaq olar. Birincisi, yaradıcılıq xüsusi qeyri-standart, qeyri-trivial əqli fəaliyyət yolu ilə yaradılan müəyyən modellər əsasında gerçəkliyi dəyişdirən vahid bir akt olmalıdır. İkincisi, hər hansı bir fəaliyyətin yaradıcı təbiəti (idrak və təfəkkür də daxil olmaqla) fəaliyyətin özünü gücləndirir, onu daha məhsuldar edir. Üçüncüsü, istənilən bir fəaliyyətdə yaradıcı yanaşma fəaliyyət subyektinin inkişaf edən funksiyasını həyata keçirir.

Yaradıcılıq probleminin tədqiqatçıları yaradıcılıq fəaliyyətinin məzmununu ətraflı və hərtərəfli araşdırırlar. Bəs yaradıcılıq prosesinin məntiqi tam olaraq nədən ibarətdir? Yaradıcılıq prosesinin bilavasitə özünü təqdim etmək üçün immanent bir yolu varmı? Y.A.Ponomaryov yaradıcılığı ardıcıl bir-birini əvəzləyən mərhələr kimi təsvir edir: 1) problemi dərk etmə; 2) problemin həlli; 3) problemin həllinin yoxlanılması. Bununla yanaşı, o qeyd edir ki, birinci mərhələdən ikinci mərhələyə keçid mövcud faktlardan tədqiqatın fərziyyəsinə, əyanidən abstrakta (mücərrədə), irrasionaldan rasionala, bilinməyəndən bilinənə doğru qalxma yolu kimi həyata keçirilir. İkinci mərhələdən üçüncü mərhələyə keçid mücərrəddən konkretə, tədqiqatın əsas ideyasından yenidən faktlara qayıdış kimi realizə olunur (5, 119).

Yaradıcılıq fenomeninin əksər tədqiqatçıları onu insanın mənəvi fəaliyyəti, o cümlədən onun intuisiyası kimi başa düşürlər ki, bunun nəticəsində orijinal dəyərlərin yaranması, əvvəllər məlum olmayan, yeni faktlar, maddi aləmin və mənəvi mədəniyyətin nümunələri və xüsusiyyətlərinin yaradılması ortaya çıxır. Fəaliyyət yanaşmanı tətbiq edərək, L.S.Vıqotski yazır: "Yaradıcılıq fəaliyyətini biz yeni bir şey yaradan fəaliyyəti adlandırırq ki, o, istər xarici dünyanın hansısa bir

şeyi tərəfindən yaradılsın və ya yalnız insanın özündə yaşayan və ortaya çıxan ağıl və ya hisslərin quruluşu olsun.” (6, 3).

Yaradıcı fəaliyyət əvvəlcədən müəyyən bir şəkildə zehni fəaliyyətin mütəşəkkil bir şəkildə qurulmasını və ya başqa sözlə fərqli fikirlərin ümumiləşdirməsini, əskik məlumatların yaradıcılıq prosesinin xüsusi alqoritmləri və metodları ilə axtarışı və bilinməyən bir mövzu, fenomen, hadisənin zehni bir model olaraq sonradan təqdim edilməsi üçün zehni işi özündə ehtiva edir.

Yaradıcı fəaliyyət qeyri-yaradıcıdan fəaliyyətin son məhsulu kimi yalnız yeniliyi ilə deyil, həm də problemə qeyri-ənənəvi, qeyri-standart yanaşması ilə fərqlənir. Yaradıcı fəaliyyətin həyata keçirilməsinin şərtləri ayırd edilir. Bu, məsələn, bir insanın yeni bir şey kəşf etmək istədiyi sahədəki bilik həcminin yetərliliyidir, digər tədqiqatçılara təcrübənin üsul və forma tapıntılarının ötürülməsidir ki, bunlar ideya və tapıntılara əsaslanaraq növbəti, daha mütərəqqi addım atan yolları və formalarını tapır. Bu zaman son məqsədə çatmaq üçün əsas vasitə, tədqiqat sahəsinin öyrənilməsi üçün metod və ya priyomları, nəzəriyyəyə zidd olan faktları tapmaq bacarığı olan ilkin bilik və müddəaların düzgün seçilməsinin şərtləri kifayət qədər vacib hesab olunur.

Yaradıcılıq üçün ən vacib şərtlər ziddiyyətlərə “həssaslıq”, bu ziddiyyətlərin tərifinin dəyişkənliyi (göstərilən ziddiyyətlərin şifahi-məntiqi tərtibatı), gözlənilməz sualların yaranma qabiliyyəti (problemi aydınlaşdıran suallar vermək bacarığı) və s.

Ümumiyyətlə, yaradıcı fəaliyyət şərtləri arasında obyektiv və subyektiv adlanan şərtlər fərqləndirilməlidir. Obyektiv şərtlərə həll olunan problemdə ziddiyyətlərin müəyyənləşdirilməsi, öyrənmə obyektinin modelləşdirilməsinin obyektiv mümkünlüyü (məsələn, məlumatın yetərliliyi), tədqiqat metodlarını mənimsəmək və ya inkişaf etdirmək imkanı daxildir.

Yaradıcı fəaliyyətin subyektiv şərtlərinə tədqiqatçının iş tərzi (xüsusən də onun düşüncə tərzi), müəyyən fəaliyyət amillərinə fərdi meyl daxildir. Qeyd etmək vacibdir ki, yaradıcı fəaliyyətin subyektiv şərtləri məntiqi olaraq obyektiv xüsusiyyətlərdən irəli gəlir və onlarla ayrılmaz şəkildə bağlıdır. Həm subyektiv, həm də obyektiv şərtlər yaradıcı fəaliyyətin müvəffəqiyyətinə və səmərəliliyinə kömək edir.

Elmdə yaradıcı fəaliyyət qanunları ayırd olunur. Onlardan ən əhəmiyyətli olanları sadalayaq və xarakterizə edək:

1) Cahillik və bilik arasındakı ziddiyyət qanunu. Yəni yaradıcılığı təşviq edən hərəkətverici qüvvə kimi bilinməyən tərəflər, keyfiyyətlər, hadisələrin, cisimlərin və hərəkətlərin özləri yaradıcılıq fəaliyyətində qurulduğu zaman cəhalət və bilik arasındakı ziddiyyətlərin reallaşması, seçilməsi və aradan qaldırılması çıxış edir.

2) Yaradıcılığın özü-özünü inkişafı qanunu. O, göstərir ki, səmərəsiz və köhnəlmiş prinsiplər, funksiyalar və hərəkətlər əvəzinə tamamilə yeni vasitələr icad

edilərkən yaradıcılığın mütərəqqi inkişafı mütləq yaradıcı fəaliyyətin yenilənməsi ilə əlaqələndirilir.

3) Yeni yaradıcılıq məhsullarının artırılması qanunu. Bu qanuna görə, yaradıcı fəaliyyətin məhsuldarlığı üçün strateji və taktiki mesajların sıx qarşılıqlı əlaqəsi tələb olunur.

Yaradıcılıq prosesinin fəlsəfi və pedaqoji aspektdən nəzərdən keçirilməsi yaradıcılığın dünyagörüş məqamlarını da ehtiva edir. Yaradıcılıqla insanın əsas aspektlərinin qarşılıqlı əlaqəsi və qarşılıqlı asılılığı, yaradıcılıq və əks olunmanın qarşılıqlı əlaqəsi, yaradıcılığın həyata keçirilməsində yadlaşma fenomeninin rolu, yaradıcılıq qabiliyyətlərinin qnoseoloji və ümummetodoloji spesifikliyi – bütün bunlar pedaqoji və fəlsəfi araşdırmaların predmetidir. Pedaqokika, psixologiya və fəlsəfə həm təcrübə ilə yaradıcılıq arasındakı əlaqəni öyrənməyi, həm yaradıcılıqda diskursivlik və intuitivlik arasındakı əlaqəni öyrənməyi, həm yaradıcılıq prosesində sosial və mədəni təyinin əhəmiyyətinin aşkarlanmasını və həm də etik aspektdən yaradıcılığın təhlilini əhatə edir.

Məlum olan yaradıcılıq priyomların əksəriyyəti (bu gün təxminən 500-ü var) empirik xarakter daşıyır, onlar bütün insanlıq təcrübəsini ümumiləşdirməsi və öyrənilməsi əsasında işlənilib və buna görə də onların vasitəsilə problemlərin mümkün olan həll yollarının variantları azalır. Məsələn, beyin fırtınası, empatiya, inversiya və digər bir sıra yaradıcı üsullar geniş yayılmışdır.

Beləliklə, araşdırdığımız yaradıcılıq fenomeninin bütün problemləri əsasında aşağıdakıları bildirmək olar:

1. Yaradıcılıq fenomeninə ən müxtəlif baxış və yanaşmalar olsa da, bu və ya digər şəkildə, o, əvvəllər olmayan, yeni bir şeyin yaradılması prosesi kimi başa düşülür: cuzi təkmilləşdirmədən (rasionallaşdırmadan) bütün varlığın (ilahi yaradıcılığın) yaranmasına qədər.

2. Yaradıcılıq fenomeninin mahiyyəti barədə fikir birliyi yoxdur. Hər bir elm yaradıcılıq prosesini özünəməxsus şəkildə nəzərdən keçirir, yaradıcılığın mahiyyətini müxtəlif cür görür. Üstəlik, müəyyən ayrı bir elm sahəsi çərçivəsində belə müxtəlif elmi məktəblər yaradıcılıq fenomenini müxtəlif aspektlərdən şərh edirlər.

3. Yaradıcılıq fenomenini həqiqi dərk etmək, mahiyyətinin nə olduğunu aydınlaşdırmaq üçün yaradıcılığın metodoloji əsaslarına müraciət etmək, problemin mahiyyətinə ən uyğun olan metodoloji yanaşmanı tapmaq lazımdır ki, bunun əsasında problemin özünü həll edə bilmək, yaradıcılıq fenomeninin mahiyyətini tapıb müəyyənləşdirmək mümkün olsun.

4. İnsan fəaliyyətinin prosesi olan və keyfiyyətcə yeni maddi və mənəvi dəyərlər ortaya çıxaran "yaradıcılıq" fenomeni – insanın reallıq tərəfindən çatdırılan materialdan yeni müxtəlif sosial-ictimai tələbatları ödəyən bir gerçəklik yaratmaq (obyektiv dünyanın qanunları əsasında) qabiliyyəti kimi təyin olun.

ƏDƏBİYYAT

1. Творчество // Философский энциклопедический словарь / под ред. Л.Ф.Ильичева и др. М., 1983, 840 с.
2. Яковлев, В.А. Диалектика творческого процесса в науке. М.: Издательство МГУ, 1989, № 4, с. 26-40
3. Абдульханова-Славская, К.А. Деятельность и психология личности. – М.: Наука, 1980, 335 səh.
4. П.В.Конин. Проблемы мышления в современной науке. М.: Мысль, 1964, 468 с.
5. Я.А.Пономарев. Психика и интуиция. – М.: Политиздат, 1967, 256 с.
6. Выготский, Л.С. Воображение и творчество в детском возрасте. – М.: Просвещение, 1991.

Məqalənin redaksiyaya daxil olma tarixi: 28.07.2022
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.10.2022
Məqalənin çapa qəbul olunma tarixi: 10.11.2022
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
pedaqogika üzrə fəlsəfə doktoru Firəngiz Rzayeva
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.